“12 illik təhsil sistemini dəstəkləyən innovasiya strategiyası” mövzusunda keçirilən konfransda Azərbaycan Respublikasının təhsil naziri Mikayıl Cabbarov, Kanadanın uşaq və gənclər xidməti naziri müavininin köməkçisi Aryeh Giterman, Birləşmiş Ərəb Əmirliklərinin Elm və İnsan İnkişafı Komitəsi Direktorlar Şurasının sədri Abdulla əl-Kərəm, Türkmənistan Milli Təhsil İnstitunun direktoru Bayram Başimov, həmçinin dünyanın bir sıra digər ölkələrindən olan tanınmış elm adamları və təhsil mütəxəssisləri iştirak ediblər.

Konfransda çıxış edən təhsil naziri Mikayıl Cabbarov bildirib ki, Azərbaycanda Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasının Fəaliyyət Planında 12 illik təhsil sisteminə keçid məsələsi də öz əksini tapıb. Nazir 12 illik təhsil sisteminə keçidin mexaniki bir dəyişiklik olmadığını, burada bir çox amillərin nəzərə alınmasının vacib olduğunu vurğulayıb.

Mikayıl Cabbarov qeyd edib ki, təhsil sisteminin əsas hədəfi əmək bazarı üçün rəqabətliliyi artırmaq, bunun üçün şagirdləri, gənc nəsli və vətəndaşları daha rəqabətli və daha yüksək dəyərə malik insan kapitalı kimi formalaşdırmaq və onların gələcək həyatı üçün daha yaxşı alətlər, bilik və bacarıqlar verməkdir. Bu məqsədlərə nail olmaq üçün ümumi təhsil sisteminin fəaliyyətinin optimallaşdırılması, onun müasir dünya standartları səviyyəsinə çatdırılması və təhsilin məzmununun, metodikasının təkmilləşdirilməsi vacibdir. Bu baxımdan 12 illik təhsilə keçid məsələsi ciddi müzakirələrin aparılmasını tələb edir.

Yaponiyanın Azərbaycandakı səfiri Tsuquo Takahaşi təhsillə bağlı geniş müzakirələrin aparılmasını təqdir edərək hər bir ölkənin inkişafında təhsilin mühüm rol oynadığını qeyd edib.

Çıxışlardan sonra təhsil üzrə beynəlxalq ekspertlərin iştirakı ilə 12 illik təhsil sisteminə keçidə dair müzakirələr aparılıb.

Konfrans zamanı ölkəmizin təhsil sistemi təhlil olunub. Ekspertlər Azərbaycanda bilik cəmiyyətinin qurulmasının əsas elementi olan 12 illik təhsil sistemi ilə bağlı təcrübə mübadiləsi aparıblar.

Müzakirələr zamanı vurğulanıb ki, Azərbaycan yüksək ixtisaslı mütəxəssislərin hazırlanması və təhsili bütün əhaliyə əlçatan etməklə ölkənin təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasını planlaşdırır. Ölkənin 2020-ci ilə qədər Milli İnkişaf Strategiyasında 12 illik orta təhsilə keçid və şagirdlərin 16 yaşına qədər icbari təhsili müddəası yer alıb.

Qeyd edək ki, bu yaxınlarda AİB-in Azərbaycanda keçirilmiş 48-ci illik toplantısında Asiya-Sakit okean regionunda inklüziv artım və innovasiyanın möhkəmləndirilməsinin vacibliyi geniş müzakirə olunub. Nəzərə çatdırılıb ki, insan kapitalının inkişaf etdirilməsi bu baxımdan mühüm amildir.

2 günlük konfrans panellər üzrə işini davam etdirəcək.